rəngliyi, boyalar zənginliyi bu poeziyada heyrət doğurur. Yox, bu cür kitabları birnəfəsə oxumaq olmaz. Şeir ucsuz-bucaqsız üzüm bağı deyil, üzümdən çəkilmiş şərabın dopdolu küpüdür. Birnəfəsə içsən dəli-divanə olarsan. Nəsirin, bütöv romanda, epopeyada dediyini şair çox da böyük olmayan bircə şeirdə, nəğmədə, dastançada deyir bəzən. Şeir yalnız ürəyin yox, həm də ömrün cövhəridir. S.Rüstəmxanlının kitabında yalnız bircə ömrün deyil, nəsillər və əsrlər ömrünün cövhəri verilmişdir.

Şeir ürəyin, beynin kardioqramıdır. Xoşbəxt o şairdir ki, xalqını təmsil edə bilir, bu halda onun ilham vergiləri yalnız özünün deyil, bütün ulusun, yurdun mənəvi kardioqramına çevrilir. Şeir və dastançalarının çoxu əsrimizin son rübündə yazılsa da, ehtiva, qapsama dairəsi çox böyük, çox əzəmətlidir. S.Rüstəmxanlının dünyaya və milli Türk tariximizə baxış dairəsi olduqca genişdir, nəzərləri iti və nüfuzedicidir. O, xalqın mənəvi tarixində ən gərəkli məqamları görür və poeziya projektoru altında göstərir, xalq mənliyinin harada zədəli, harada sağlam olduğunu loğmancasına aydınlaşdırır.

S.Rüstəmxanlı poeziyası öz oxucusunu yalnız yeni duyğular, yeni arzular, yeni fikirlər ilə deyil, həm də ən başlıcası qeyrətlə silahlandırır. Bu şeirləri oxuyandan sonra klassik Azərbaycan dünyası ilə fəxr edirsən, bu ülviyyətə, bütövlüyə qarşı tuşlanmış nə varsa, hamısını yıxmaq, dağıtmaq uğrunda çarpışmalara yerikləyirsən. Haqqa arxalanan mübarizədir bu şeirlərin məramı! Bəli, hər cür mübarizə yox, məhz haqqa, məntiqə, mənəvi ləyaqətə arxalanan böyük döyüşlərə çağırır bizi bu üsyankar, bu qanadlı, bu qeyrətli poeziya və bizə dönə-dönə xatırladır ki, öz doğma xalqından, böyük və əzəmətli tarixindən uzaq düşənlər, qafillər, yurdsevərliyi nəfsinə, bir üskük şöhrətinə, sərvətinə qurban verənlər nə qədər miskin, nə qədər zavallıdırlar. Və əksinə, millətə, bəşəriyyətə xidmət yolu seçənlər, bu uğurda başdan keçənlər, ulu amal yolçuları necə bəxtəvərdirlər!

Son qənaətim: Rüstəmxanlının böyük milli şairimiz olmaq imkanı var. Çox güman ki, o, bu imkanı əldən verməyəcək.

Xəlil Rza Ulutürk
Bakı, 22 iyun 1991

Ocaq, torpaq duyğusu qəribə duyğudu. Hər kəs öz üzünə öyrəşdiyi, ata-anasına bağlandığı kimi bir parça torpağa da bağlanır və orda dünyanın heç yerində tapa bilmədiyi rahatlıq tapır. Yaşamaq burda nuş olur, ölmək burda asanlaşır. Dünyanın bütün əzabları, qorxuları əcdadların ruhlarına qovuşmaq adlanan və sözlə ifadə oluna bilməyən sirli sevinclə üz-üzə gələndə vahiməsini itirir; insan ölümə ayrılıqdan çox, görüşə gedən kimi gedir, tapdığının itirdiyindən böyüklüyünə inanır...

VƏTƏN

Bir ölçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysanıdı,
21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeridi,
Dağları dumanda itən –
Vətən... Vətən!

Hadinin şeir bazarıdı,
Füzulinin məzarıdı,
Taleyin ələnən ələyidi.
Durna lələyidi.
Araz hörüyündən
kəməndə düşmüş Sevildi.
"Ənəlhəq" harayıdı.
Ələsgərin sazıdı.
Qədim əlyazmasıdı –
Dahilər boylanır sətirlərindən
Vətən... Vətən!

Şimşəklər çinartək sancılıb yerə,
Düşmənin gözünə dirsəkdi hər dağ.

Babalar atını sürüb gedibdi,
Qalalar boylanıb qalıbdır ancaq.
Oğlu – Şah İsmayıl Xətayi adlı,
Ağ atlı oğlan var, atı qanadlı;
Bir də Suraxanı atəşgahı var,
Bir də Misri qılınc, bir də Çənlibel;
Bir də
"Heydərbaba" yazılmış bir dil.
Torpağı ot deyil, kişi göyərdən
Vətən... Vətən!

KƏNDİMİZİN QIZLARINA

Əbəs yerə məndən uzaq gəzirsiniz,
Əbəs yerə utanırsınız məndən belə!
Bir obadan, bir torpaqdan olsaq da biz
Məni yaxşı tanımırsınız, qızlar, hələ.

İnsafsızlar, bu quruluq nəyə gərək,
Bu yadlıqdan az qalır ki, ağlım aza.
Siz baxmayın mənə elə yad oğlutək,
Mən də sizin doğmanızam, paranızam.

Bu yollarda siz qalsanız, mən ucalsam,
Heç bir zaman şöhrət yükü daşımaram.
Ayrı düşüb, illər boyu uzaq olsam,
İnanın ki, yenə sizsiz yaşamaram.

Nədir bizi ayrı salan, uzaq edən,
Çəmənləri bircə yerdə gəzməzdikmi?
Bağ-bağatda gün çıxandan gecəyəcən
Oyunlardan, gülüşlərdən bezməzdikmi?

Kəndarası yollar ilə dəstə-dəstə,
Azmı olub səs-küy ilə dolaşmışıq?!
Dərs zamanı kitab üstə, parta üstə
Azmı olub küsüşmüşük, dalaşmışıq.

Azmı olub siz söz atıb gülüşəndə,
Mən hirsimdən gizli-gizli ağlamışam.
Arabir də girəvəmə tək düşəndə,
Saçınızı biləyimə dolamışam.

Əvvəlkiyəm, vallah, elə o adamam –
Sizin dəcəl, sizin doğma Sabiriniz.
İllər keçsə yenə sizi unutmaram,
İllər keçsə, könlüm yenə əsiriniz!..

Tələbəyəm, yolum az-az düşür kəndə,
Bu uzaqlıq yad eləməz məni ancaq.
Könül verib, ürək verib sevdiyim də,
İnanın ki, sizdən gözəl olmayacaq.

Başınıza gül-çiçəklər səpim gəlin,
Gül-çiçəkdən daha gözəl, təmiz olun.
O qaralmış əlinizdən öpüm gəlin,
Təki mənə əvvəlkitək əziz olun!

1966

YARDIMLI YOLLARINDA

Maşın dağdan dərəyə, dərədən düzə dönür,
Uçurumlar üstündə ürəklər buza dönür,
Yamacdakı lalələr axan ulduza dönür
Yardımlı yollarında.

Suların sinəsində kölgə olub axırıq,
Gözəlliyin önündə dayanıb lal baxırıq,
Zirvələrin başına dolanırıq, qalxırıq
Yardımlı yollarında.

Yarıb dumanı-çəni zirvədən qartal uçur,
Qayaların görkəmi vahimədir, qorxudur,
Meşələrin sükutu adamları qorxudur
Yardımlı yollarında.

Ulduzamı, ayamı ucalmaq vüsəti var,
Çay kimi axışında bir arzu surəti var,
Bir kənd məhəbbətinin tələsən sürəti var
Yardımlı yollarında.

Min illik palıdlardan bir ömür borc alaydım,
Keçilməz dərələrə özüm körpü olaydım,
Buz sulu, saf aynalı bulaq olub qalaydım
Yardımlı yollarında.

1964

ZİRVƏNİN DƏRDİ

Gecələr dağları duman alanda
Gecələr zülmətdə
yalqız qalanda
Zirvə də danışır özü-özüylə.
Bu tənha ucalıq – ürək qubarı...
Deyir ki, bircə gün dərəyə dönüb,
Hamıyla yanaşı olaydım barı.
Həsəd baxışları
sübhün şehitək
Çırpıb ətəyimdən tökəydim yerə.
Olaydım kölgəli,
nəmli bir dərə,
Çalaydım lilpəri tütək yerinə;
Səhərin dumanı ağ yuxu kimi
Dolaydı gözümün bəbəklərinə.
Meşə yarpaq-yarpaq əlləri ilə
Sərinlik səpəydi yollarım üstdə.
Çəməndə şeh əmən körpə cığırlar
Qıvrılıb yataydı qollarım üstdə.
Günəş gözlərini məndən çəkəndə
Küləklər döşlərə həsrət yayaydı.
Bulaq nəğməsinin axarlarıyla

Sinəmdə təmizlik addımlayaydı.
Hər addım dönsə də iti qılınca –
Ürəyim ayağa düşsə, yaxşıdır.
Bir qızıl ildırım məni çalınca,
Köksümü şəlalə deşsə yaxşıdır.
Mənim yüksəkliyim fərəhmi məgər? –
Böyükdür böyüyün dərdi-səri də.
Ən dərin okean çökəkləritək
Cansızdır dağların zirvələri də!

1969

TANIMAQ İSTƏSƏN

Gəl tutub əl-ələ qaçaq bu gündən
Qayıdaq
öz uşaq keçmişimizə.
Utancaq, mehriban,
dəli, qüssəli,
Yolları dolaşıq keçmişimizə.

Dolaşaq günlərin sıx meşəsini,
Dəysin üzümüzə söz-sov budaqlar.
Sındıraq ilk eşqin buz şüşəsini,
Görək quruyubmu həsrət bulaqlar.

Döyək qapısını dostun, yadın da –
Qapılar ayrılıq pəncəsidimi?!
Uşaqlıq yolları qalır yadımda
Yalın ayaqların nəğməsi kimi.

Budaqdan asılıb qəhqəhələrlə
Yellənir indi də uşaqlığımız.
Qaçarıq yanına qəmlə, qəhərlə,
Ancaq o, bir daha bizi tanımaz.

Eh ötən günlərin hər varağında
Neçə arzu odu alışır bəlkə.
Kəndin qırağında
qürub çağında
Şair uşaqlığım dolaşır bəlkə.

Gəl gedək, o sənə yüz şeir desin,
İndi mənim təbim ona çatammaz.
Yox, dayan,
Gözəlsən, səni görməsin,
Uzun gecələri yoxsa yatammaz.

Yığışsın qəmlərim, toy-düyünlərim,
Düzülsün yan-yana neçə qış-bahar.
Utana-utana, ötən günlərim
Əl verib sənինlə tanış olsunlar.

Onda tanıyarsan məni, əzizim,
Sonra bu günədək qaçıb gələrik.
Daha sorğu-sual ayırmaz bizi,
Olub-keçənləri yaxşı bilərik.

1968

Allahın gecə-gündüz işdən, tarpaqdan, ilğımlı çöllərdən və uca dağlardan başqa heç yerdə səadət tapa bilməyən bu məzlum millətinin ruhu, işığı min illəri adlayıb gələn bir möcüzədir.

Yer üzündə insan əlinin, insan əzələsinin abidələri çoxdur: tikililər, texnika, sənət inciləri...

Bəs insan ruhu? Bəs millətin ruhunun işığı? Şeir bu işığın şəklidir, söz-söz hörülmüş ruh abidəsidir...

Şer ruhu əbədiləşdirir. Buna görə də şairin zamandan qorxusu yoxdur.

YOLLARIMIZ

Azərbaycan yollarının ilqarı dönməz,
Qanadlanıb bir oymaqdan
min elə çatır.
Azərbaycan yollarının sonu görünməz,
Əvvəli isə ildırımtək buludlardadır.

Dağ sədləri,
sərhədləri o aşıb keçir,
Qitələri, dənizləri dolaşıb keçir.
Vüsal olur –
sahillərin yadlığı itir,
Qılınc olur –
yağıların şadlığı itir.
Azərbaycan yollarıyla uzaq ellərə
Sevgimizin, kinimizin səsası gedir.

Od payladıq, nur payladıq yaxına, yada,
Azərbaycan – özü boyda sönməz bir işıq!
Addımların ahəngini pozan olanda
Yolumuzu baxışlarla, gözlə salmışıq.

Analar da "göyərçintək qonub yollara",
Yollarımız laylalara silkələnibdir.
Yollarımız durna kimi uçub bahara;
Qıratların dırnağında kilkələnibdir.